2018-ci ilin yanvar-may aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 5760 min ton yük, 37425 min sərnişin daşınmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,9 faiz, sərnişin daşınması 1,6 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 21 milyon 646 min manat gəlir əldə edilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,7 faiz, sərnişin daşınması 2,6 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 1,7 faiz artmışdır.